# Səyyar qəbullar

Yaşanılan ömür daima müəyyən problemlərlə dolu olur. Həyat mübarizədir və insan yaşadığı dövrdə isə onları həll etmək üçün mübarizə aparır. Bəzən elə problemlərlə qarşılaşır ki, onların həlli tək özünün mübarizəsi ilə hasilə yetmir. O zaman xeyirxah insanlar onun çətinliklərinin həllində birgə mübarizəyə qoşulurlar. Axı xeyirxahlıq xalqımıza xas olan ən gözəl xüsusiyyətdir. İnsanların insan adının təsdiqidir xeyirxahlıq! Hər kəs öz gücü müqabilində bu missiyanı davam etdirərsə, insanların yaşam tərzində bu müsbət rol oynayar və oynayır.



Böyük Pirəli kəndi.





Aydınqışlaq kəndi.



Yemişanlı kəndi.

Rayonumuzun sakinlərinin rifah halının yaxşılaşdırılması və ictimai həyatın hərtərəfli inkişafı, mədəni-məişət qayğıları, onların problemləri rayon rəhbərliyinin həmişə maraq dairəsindədir. Elə buna görə də hər ay Qəbələ Rayon İcra Hakimiyyəti başçısı Səbuhi Abdullayev tərəfindən ayrı-ayrı qəsəbə və kənd əhalisi ilə səyyar qəbullar təşkil olunur.

Bu ilin may ayında səyyar qəbullar Böyük Pirəli, Aydınqışlaq və Yemişanlı kəndlərində keçirilmişdir. Bu qəbullar zamanı Səbuhi Abdullayev kənd sakinlərini qəbul etmiş, onların müraciətlərini dinləmişdir. Hüquq mühafizə orqanlarının, Qəbələ rayon İH yanında ictimai şura nümayəndəliyinin, xidmət sahələrinin rəhbərləri və kənd ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi belə səyyar qəbullar zamanı icra hakimiyyətinin başçısı tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərdən, həmin işlərin həyata keçirilməsində göstərilən xüsusi diqqət və qayğıdan, eləcə də, Qəbələ rayonunda aparılan tikinti-quruculuq işlərindən, əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən ətraflı danışılmışdır. Səyyar qəbullar zamanı kənd sakinləri tərəfindən qaldırılan məsələlərin həll edilməsi istiqamətində RİH başçısı tərəfindən aidiyyəti üzrə müvafiq tapşırıq və tövsiyələr verilmişdir. Görüş tədbirlərində çıxış edən sakinlər onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

**“Qəbələ”.**

**Fotolar S. Umuyevindir.**

# Vətəndaş qəbulu



Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən növbəti dəfə vətəndaşların qəbulu keçirilib. Qəbulda Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin, eləcə də digər vətəndaşların müraciətləri dinlənilmişdir. Onların irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirmişlər.

# Şəhidimizin anım günü



13 may 2024 cü il tarixində rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri tərəfindən Qəbələ şəhər sakini, sərhəd qoşunlarının hərbi qulluqçusu şəhid Qarayev Məhəmməd Mahir oğlunun şəhidlik zirvəsinə ucalmasının ildönümü ilə əlaqədar şəhidin məzarı ziyarət edilmiş, üzərinə gül dəstələri düzülərək, xatirəsi anılmış, ruhuna dualar oxunmuşdur. Şəhidin ailə üzvləri dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu

10 may 2024-cü il tarixində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyi münasibəti ilə “Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində “Qəbələ rayonu ərazisində ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfrans keçirilmişdir. Qəbələ Rayon İcra Hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının, idarə müəssisə və təşkilat rəhbərlərinin, ziyalıların, ağsaqqalların və rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən konfrans Azərbaycan Dövlət Himninin səslənməsi ilə başlamış, Ulu Öndərin və torpaqlarımızın işğaldan azad olması uğrunda şəhadətə yüksəlmiş şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli Liderin təməlini qoyduğu daxili və xarici siyasət kursunun, dövlət quruculuğu konsepsiyasının Prezident İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirildiyini və yeni çalarlarla zənginləşdirildiyini diqqətə çatdırmışdır. Çıxış edən 6 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin “Ətraf mühitdən istifadənin tənzimlənməsi, ekoloji maarifləndirmə” sektorunun baş məsləhətçisi Neman Kərimov Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi



dövrlərdə ilk dəfə ümumittifaq miqyasında yaşıllaşdırma tədbirlərinin ölkəmizdə həyata keçirildiyini qeyd etmiş, Azərbaycanın zəngin flora və fauna müxtəlifliyinin qorunub saxlanılması, ölkənin ekoloji siyasətinin formalaşması və inkişaf etdirilməsi, respublikamızda, eləcə də, Qəbələ rayonunda bu sahədə görülmüş işlərdən danışmışdır. Digər çıxış edənlər dövlət müstəqilliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri olmuş, xalqımızın xilaskarı, dahi lideri Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük layihələrdən, iqtisadi islahatlardan, Ulu Öndərin Qəbələ rayonuna səfərlərinin əhəmiyyətindən bəhs etmişlər. Sonda Ümummilli Liderin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar Heydər Əliyev irsinin təbliğində və rayonun ictimai-siyasi həyatında fəallıq göstərən bir qrup şəxsə rayon icra hakimiyyətinin fəxri fərmanı təqdim edilmişdir.

# Pasxa bayramı

Qəbələ rayonunun Nic qəsəbəsindəki "Cotari" alban-udi pravoslav kilsəsində Pasxa bayramı qeyd edilmişdir. Bayram mərasimində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, Azərbaycanda fəaliyyət göstərən dini konvensiyaların nümayəndələri, qəsəbə sakinləri və qonaqlar iştirak etmişdir. DQİDK-nin sədr müavini çıxışında tolerantlığın Azərbaycanda həyat tərzi olduğunu, ölkəmizdə fəaliyyət göstərən bütün dini konfessiyaların nümayəndələrinin bir ailə kimi yaşadıqlarını bildirmişdir. Çıxış edən Qəbələ Rayon icra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev xalqımıza xas zəngin tolerantlıq ənənələrinin, multikultural dəyərlərin təbliği və təşviqi ölkəmizdə həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıraraq, rayonumuzda yaşayan müxtəlif dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq və mehriban qonşuluq şəraitində yaşadığını qeyd etmişdir. Digər çıxış edənlər Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışmış, azsaylı xalqlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər. Sonda bayram münasibətilə şamlar yandırılmış, dualar oxunmuş və bayram konserti keçirilmişdir.